# Hər görüş insanlarda böyük ruh yüksəkliyi yaradır

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yaşayış məntəqələrində əhali ilə tez-tez görüşlər keçirir, onların qayğı və problemləri ilə maraqlanır, yaranmış çatışmazlıqlar yerindəcə həll edilir.***

***Yaz-tarla işlərinin indiki qızğın çağında icra başçısı yenə də tez-tez kənd sakinləri ilə görüşlər keçirir, təsərrüfat işlərinin gedişatı ilə maraqlanır. Bu da camaatda böyük ruh yüksəkliyi yaradır, torpaqda çalışan insanlara sözün əsl mənasında, qol-qanad verir.***

***Bunun nəticəsidir ki, rayonda aparılan tikinti-quruculuq işləri ilə yanaşı, aqrar sektorda da işlər qaydasında gedir. İşləmək üçün hər cür şəraitlə təmin olunmuş sakinlər qollarını çırmayıb öz təsərrüfat işləri ilə məşğul olur, indidən gələcək bol məhsulun bünövrəsini qoyurlar.***

## Bum qəsəbəsi

Növbəti belə səyyar görüş-qəbullardan biri rayonun Bum qəsəbəsində keçirilib. Görüş-qəbulda hüquq mühafizə orqanlarının, xidmət sahələrinin rəhbərləri və qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak edib.



Tədbirdə RİH başçısı Səbuhi Abdullayev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan sosial-iqtisadi inkişafdan, o cümlədən Qəbələ rayonunda həyata keçirilən abadlıq-quruculuq işlərindən danışıb. Qeyd olunub ki, rayonda yeni sənaye müəssisələri, sosial obyektlər, məktəb binaları inşa edilərək istifadəyə verilib, əksər kəndlərə qaz xətləri, asfalt avtomobil yolları çəkilib, yeni beton bəndlər tikilib, körpülər salınıb, əhalinin dayanıqlı rabitə, elektrik enerjisi, qaz təchizatı yaxşılaşdırılıb.



Görüş-qəbulda son illər ərzində rayonumuzda görülən yenidənqurma işlərinin fonunda Bum qəsəbəsinin də diqqətdən kənarda qalmadığı, burada yeni uşaq bağçasının, ümumi orta məktəb binasının inşa olunduğu, Qəbələ-Bum yolunun yenidən qurulduğu, qəsəbənin ərazisində su ötürücüsünün yerində biraşırımlı müasir körpünün inşa edildiyi qeyd olunub.

Qazanılan bütün uğurların ilk növbədə dövlət başçısının sosial sahədə apardığı islahatların nəticələri olduğunu qeyd edən icra başçısı, əhalinin rifahının və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ölkədə həyata keçirilən humanitar layihələrdən söz açıb.

Sonra görüşdə qəsəbə sakinləri dinlənilib. Onlar Bum qəsəbəsində görülmüş abadlıq-quruculuq işlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

Çıxış edənlərdən Zahir Aslanov, Azər Əfəndiyev, Hikmət Abdullayev və başqaları Bum çayının sahilində beton bəndin inşasını, qəsəbə ümumi orta məktəbi üçün əlavə modul tipli məktəb binasının tikilməsini və istilik sisteminin təbii qaz təchizatına keçirilməsini, telefon və işıq xətlərinin dəyişdirilməsini, ərazidə 1 ədəd yeni artezian quyusunun qazılmasını və digərlərinin isə təmir olunmasını xahiş ediblər.

Görüşü yekunlaşdıran RİH-nin başçısı qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

**"Qəbələ"**

## Tüntül kəndi

Aprelin 3-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Tüntül kəndində sakinlərlə səyyar görüşü keçirilib.

Rayonun hüquq-mühafizə orqanlarının, xidmət sahələri rəhbərlərinin və kənd ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbirdə RİH-nin başçısı çıxış edərək Qəbələ rayonunda və Tüntül kəndində sosial-iqtisadi sahədə görülən işlər barədə ətraflı məlumat verib.



Qeyd olunub ki, yaşayış məntəqələrində mövcud olan xarakterik problemlərin vaxtında həlli istiqamətində bütün zəruri addımlar atılır. Rayonun hər bir yaşayış məntəqəsində, eləcə də Tüntül kəndində əhalini narahat edən məsələlərin aradan qaldırılması ilə bağlı həyata keçirilən tədbirlərin, infrastruktur layihələrinin bundan sonra da davam etdiriləcəyi diqqətə çatdırılıb.

Rayon icra hakimiyyətinin başçısı əhalinin fasiləsiz elektrik enerjisi, rabitə, təbii qaz, içməli su ilə təchizatı vəziyyətinin, yol infrastrukturunun yaxşılaşdırılması və aparılan digər mədəni-quruculuq layihələrdən danışıb, həyata keçirilən tədbirlərdən söhbət açıb.



Görüşdə ölkə başçısı tərəfindən aparılan sosial islahatlar–imzalanan yeni fərman və sərəncamlar barədə ətraflı məlumat verib, bütün bunların əhalinin rifah halının yaxşılaşdırılmasına, əmək haqlarının, pensiyaların və digər sosial ödənişlərin artırılmasına, kredit borclarının ödənilməsində güzəştlərin tətbiq olunmasına xidmət etdiyi diqqətə çatdırılıb.

Görüşdə kənd sakinləri onlara dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Çıxış edən vətəndaşlardan Qiyasəddin Abbasov, Azər Abdulxalıqov, Rafiq Cəlilov və başqaları kənddə yeni artezianın qazılmasını, ərazidən keçən 10 kva-lıq elektrik xəttinin təmir olunmasını, modul tipli məktəb korpusunun tikilməsini, təzə salınmış yaşayış massivinə telefon xəttinin çəkilməsini xahiş ediblər.

RİH-nin başçısı görüşdə səsləndirilən təkliflərlə bağlı aidiyyəti məsul şəxslərə konkret tapşırıqlar verib.

**"Qəbələ"**

# Çağırışçılar hərbi xidmətə yollanırlar

Prezident İlham Əliyev fevralın 28-də Azərbaycan vətəndaşlarının 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb. Sərəncama uyğun olaraq aprelin 1-dən ölkəmizdə müddətli həqiqi hərbi xidmətə çağırış başlayıb.

Aprelin 30-dək davam edəcək çağırış prosesində qəbələli gənclər də hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borclarını yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanırlar.

Həmin sərəncama əsasən xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət qulluqçuları da 2019-cu il aprelin 1-dən 30-dək ehtiyata buraxılırlar.

Xatırladaq ki, çağırışçılar təyin olunduqları xidmət yerləri barədə martın 25-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən SMS vasitəsilə məlumatlandırılıblar.

**"Qəbələ"**